Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2021, **s. 24-31**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2021, **с. 24-31**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2021, **pp. 24-31**

UOT 78

Sevda Firuddin qızı Qurbanəliyeva
Gəncə Dövlət Universiteti
sənətşünaslıq üzrə elmlər doktoru, professor
Azərbaycan Respublikasının Əməkdar müəllimi
AZ 2001, Gəncə ş., Heydər Əliyev pr. 429
E-mail: s_qurbanəliyeva@mail.ru

NİZAMİ GƏNCƏVİ İRSİ MUSİQİ YARADICILIĞINDA

Açar sözlər: *Azərbaycan, Nizami Gəncəvi, poeziya, musiqi, yaradıcılıq, bəstəkar*

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılıq irsi milli mədəniyyətimizə dair zəngin məlumatları ehtiva etməklə yanaşı, eyni zamanda, ədəbiyyat və incəsənətimizin inkişafına güclü təsir göstərmişdir.

Şeyx Nizaminin insana sonsuz məhəbbətlə dolu fəlsəfi poeziyasını Azərbaycan bəstəkarları müxtəlif janrlı əsərlərində (opera, balet, simfoniya, kantata, oratoriya, xor, instrumental, kamera-vokal və s.) təcəssüm etdirmişlər.

Nizami dühasından bəhrələnən musiqi əsərləri ilə tanışlıq göstərir ki, bu əsərlər məhz milli ənənələrlə bağlılığı, lirik xüsusiyyətləri ilə səciyyələnir.

С.Ф.Курбаналиева

НАСЛЕДИЕ НИЗАМИ В МУЗЫКАЛЬНОМ ТВОРЧЕСТВЕ

Ключевые слова: *Азербайджан, Низами Гянджеви, поэзия, музыка, творчество, композитор*

Творческое наследие великого азербайджанского поэта и мыслителя Низами Гянджеви содержит огромную информацию о богатой национальной культуре Азербайджана и оказало большое влияние на развитие азербайджанской профессиональной музыки.

Философские стихи Шейха Низами, наполненные бесконечной любовью к людям, азербайджанские композиторы воплотили в произведениях самых разных жанров (опера, балет, симфония, кантата, оратория, хор, инструментальные, камерно-вокальные и др.).

Знакомство с музыкальными произведениями, написанными на основе поэтического наследия Низами, показывает, что эти произведения

характеризуются связью с национальными традициями и лирическими особенностями.

S.F.Gurbanaliyeva

NIZAMI̓ LEGASY IN MUSICAL CREATIVITY

Key words: *Azerbaijan, Nizami Ganjavi, poetry, music, creativity, composer*

The creative heritage of great Azerbaijan poet and thinker Nizami Ganjavi contains huge information about rich national culture of Azerbaijan and makes a big impact to the development of Azerbaijan professional music.

Getting inspired from the philosophical poems of Sheikh Nizami, full of endless love to his people, Azerbaijan composers embodied very different genres in their creation (opera, ballet, symphony, cantata, oratory, chorus, instrumental, chamber-vocal, etc.).

The acquaintance with the musical compositions, composed on the poetic heritage of Nizami, shows that these compositions are characterized with commitment to national traditions and lyrical features.

Fəxrlə qeyd etməliyik ki, Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin 05 yanvar 2021-ci il tarixli Sərəncamından irəli gələn vəzifələrlə əlaqədar ölkəmizdə olduqca əhəmiyyətli tədbirlər həyata keçirilir.

Şərq İntibahını öz əsərlərində təcəssüm etdirən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılıq irsi Azərbaycan xalqının mənəvi həyatının bədii tarixi olmaqla yanaşı, musiqi sənətinə dair dəyərli fikirlərlə, Azərbaycan mədəniyyətinin simvollarına çevrilmiş obrazlarla zəngindir [1].

Ümumbəşəri əhəmiyyət daşıyan Nizaminin şeir və poemaları yaradıcı insanlar üçün əbədi ilham mənbəyi, obraz və süjetlər xəzinəsidir. Nizaminin poemalarının süjetləri əsasında çoxsaylı təsviri sənət, ədəbi və musiqi nümunələri yaradılmışdır.

Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ndən aşağıdakı poetik sətirlər göstərir ki, Nizami ilk poemasını yaradanda artıq lirik şeirlər müəllifi kimi tanınırdı və müğənnilər onun şeirlərinə geniş müraciət edirdilər:

Nizaminin sözləri şirin, duzlu, məzəli,
Müğənnilər dilində əzbərdir hər qəzəli [2, s. 66].

Nizami qəzəllərinin əsrlər öncə də şah məclislərində müğənnilər tərəfindən oxunduğunu şair "Xosrov və Şirin" poemasında belə təsvir edir:

Dəstə-dəstə durmuş türfə gözəllər,
Dillərdə Nizami yazan qəzəllər.
Bir şirin avazla hey oxuyurlar,
Çəngi yarasına məlhəm qoyurlar [3, s. 368].

Azərbaycan xalqının təfəkkür sisteminin, zəngin mənəviyyatının parlaq ifadəsi olan muğam sənəti və Nizami lirikası doğma ana-bala kimi əriş-arğac olub Azərbaycan mədəniyyətinin simvollarına çevrilmişlər [1].

Eyni zamanda, Nizami Gəncəvinin yaradıcılıq irsi Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin inkişafına qüvvətli təsir göstərmişdir.

1939-cu ildə Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsinə hazırlıq işləri ilə əlaqədar Azərbaycan bəstəkarları şairin poeziyasını musiqidə tərənnüm edən əbədiyaşar sənət əsərləri yaratmışlar. 1941-1945-ci illər müharibəsi səbəbindən yubiley tədbirləri Bakıda 1947-ci ildə keçirilmişdir. 1939-1947-ci illərdə Nizamiyə ithaf olunan, böyük humanist şairin obrazının tərənnümünə həsr olunan, onun yaratdığı obraz və süjetlər əsasında yazılan müxtəlif janrlı əsərlər Azərbaycan musiqi mədəniyyətində mühüm yer tutur.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli şairin iki qəzəlinə müraciət edərək, 1941-ci ildə "Sənsiz", 1943-cü ildə "Sevgili canan" vokal əsərlərini yazmış və bununla da musiqi mədəniyyətində yeni bir musiqi janrının – qəzəl-romans janrının təməlini qoymuşdur.

Romans-qəzəl, təsnif-romans, musiqili qəzəl adlanan bu vokal miniatürlər Nizami dühasının musiqi ilə vəhdətinin parlaq nümunəsidir. Hər iki vokal miniatür ilk dəfə Azərbaycan peşəkar vokal məktəbinin banisi Bülbülün ifasında səslənmişdir [4].

Üzeyir Hacıbəylinin ənənələrini davam etdirən Azərbaycan bəstəkarları dahi şairin lirikasından bəhrələnərək onlarla vokal əsərlər yazmışlar.

Görkəmli Azərbaycan bəstəkarları əsərlərini Şeyx Nizamiyə ithaf etmiş, onun insana məhəbbətlə dolu poeziyasını müxtəlif musiqi janrlarında uğurla təcəssüm etdirmişlər. Üzeyir Hacıbəyli "Nizami" kantatasını (1947), Əfrasiyab Bədəlbəyli "Nizami" operasını (1939), Niyazi "Xosrov və Şirin" operasını (1941), Fikrət Əmirov simli orkestr üçün "Nizaminin xatirəsinə" simfoniyasını (1947), "Nizami" baletini (1984), Qara Qarayev "Payız" lirik xorunu (1947), "Leyli və Məcnun" simfonik poemasını (1947), "Yeddi gözəl" baletini (1952), Soltan Hacıbəyov "İsgəndər və çoban" uşaq operasını (1947), Tofiq Bakıxanov "Xeyir və Şər" baletini (1990), Oqtay Rəcəbov "Xeyir və Şər" uşaq operasını (1991), Cahangir Cahangirov "Qəzəl" (1947), Cövdət Hacıyev "Ey, gül" (1952) xorlarını, Ramiz Mustafayev "Nizami" oratoriyasını (1993) və digər

bəstəkarlar Nizami Gəncəvinin yaradıcılıq irsini musiqidə tərənnüm edən dəyərli sənət əsərləri yaratmışlar [5].

Misal təriqi ilə qeyd edək ki, ilk Azərbaycan baletinin müəllifi, dirijor, musiqişünas, publitsist və ictimai xadim Əfrasiyab Bədəlbəylinin "Nizami" operası dahi mütəfəkkir-şairə həsr olunan ilk musiqili səhnə əsəridir (opera 1939-cu ildə yazılmış, 1948-ci il, dekabrın 12-də Azərbaycan Dövlət Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyulmuşdur). Operada Nizami rolunu Bülbül canlandırmışdır. Məmməd Səid Ordubadinin Nizami Gəncəvinin həyat və yaradıcılıq yoluna həsr etdiyi "Qılınc və qələm" romanının motivlərinə əsaslanan bəstəkar librettonun məzmununu opera sənətinin məşhur "Grand opera" istiqamətini xatırladan beş aktlı operada təcəssüm etdirmişdir (libretto müəllifi Ə.Bədəlbəylidir).

Onu da qeyd etməliyik ki, Nizaminin yaradıcılıq irsi ilə yaxından tanış olan Əfrasiyab Bədəlbəyli 1947-ci ilin may ayında rus dilində yazdığı "Nizami musiqi haqqında və musiqidə" adlı tədqiqat işində Azərbaycan musiqişünaslığında ilk dəfə Azərbaycan bəstəkarlarının yaradıcılığında Nizami obrazının və bədii irsinin təcəssümü məsələləri işıqlandırılmışdır. Əlyazmanın sonunda müəllif dahi şairin əsərlərinin motivləri əsasında bəstəkarların müxtəlif janrlarda yaratdıqları əsərlər haqqında söhbət açır. Burada o, Niyazinin "Xosrov və Şirin" (libretto M.Rəfilinin), Boris Asafyevin "Slavyan gözəli" (libretto H.İsmayılovun) və özünün "Nizami" (libretto M.S.Ordubadinin) operalarının adını çəkir, Soltan Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun və digər Azərbaycan bəstəkarlarının Nizaminin mətnləri əsasında həmin dövrdə yazdıqları əsərlər barədə məlumat verir. Ə.Bədəlbəyli yazır: "Tamamilə təbiidir ki, şairin əsərlərinin motivləri əsasında monumental musiqi əsərləri yalnız onun vətənində yaradılmışdır. ....Dahi Nizaminin adına layiq, bədii cəhətdən yüksək səviyyəli əsərlər ancaq şairin vətənində, onun dahiyanə yaradıcılığının məzmununu qəlbən hiss edən və dərindən dərk edən doğma torpağının övladları tərəfindən yaradıla bilərdi" [6, s.61-65].

Yaşadığımız hər gün bu sözlərdə olan həqiqəti bir daha təsdiqləyir. Nizami irsini Azərbaycan bəstəkarları demək olar ki, musiqinin bütün janrlarında (opera, balet, simfoniya, simfonik poema və süita, instrumental əsərlər, kantata, oratoriya, xor, romans-qəzəl və s. əsərlərdə) böyük məhəbbətlə tərənnüm etmişlər [7].

Aparılan araşdırmalar nəticəsində Nizami Gəncəvinin poetik irsini Azərbaycan bəstəkarlarının yaradıcılığında əks etdirən əsərlərin təqribi siyahısını aşağıdakı kimi göstərmək olar:

Operalar:

1. Mirzə Cəlal Yusifzadə. "Fərhad və Şirin" (1910)
2. Əfrasiyab Bədəlbəyli. "Nizami" (1939-1942)
3. Niyazi. "Xosrov və Şirin" (1941)

4. Zülfüqar Hacıbəyov. "Nüşabə" (1946)
5. Soltan Hacıbəyov. "İsgəndər və çoban" uşaq operası (1947)
6. Ramiz Mustafayev. "Şirin" (1957)
7. Oqtay Rəcəbov. "Xeyir və Şər" uşaq operası (1991)
8. Rəşid Şəfəq. "Bayquşların söhbəti" (1992)
9. Rəşid Şəfəq. "İsgəndərin sirri" uşaq radio-operası (2014)
10. Eldar Mansurov. "Yeddi gözəl" (2005)

Baletlər:

1. Qara Qarayev. "Yeddi gözəl" (1952)
2. Qara Qarayev. "Leyli və Məcnun (1969. Bəstəkarın eyniadlı simfonik poeması əsasında birpərdəli xoreoqrafik poema)
3. Qalib Məmmədov. "Sirlər xəzinəsi" (1983)
4. Qalib Məmmədov. "İsgəndərnamə" (2005)
5. Fikrət Əmirov. "Nizami" (1984)
6. Tofiq Bakıxanov. "Xeyir və Şər" (1990)

Simfonik əsərlər:

1. Boris Zeydman. "Xosrov və Şirin" (1940)
2. Olqa Nikolskaya. "Bəhram-Gur" (1940)
3. Fikrət Əmirov. "Nizami" (1947. Simli orkestr üçün)
4. Məmməd Quliyev. Yeddinci simfoniya – "Xəmsə"dən damlalar (1992)

Simfonik poemalar:

1. Fikrət Əmirov. "Nizaminin xatirəsinə" (1941)
2. Qara Qarayev. "Leyli və Məcnun" (1947. Böyük simfonik orkestr üçün)
3. Midhət Əhmədov. "Bəhram-Gur" (1948)
4. Nəriman Məmmədov. "Fərhad və Şirin" (1980. Simli orkestr və orqan üçün)

Simfonik süitalar:

1. Qara Qarayev. "Yeddi gözəl" (1949. Eyniadlı baletin musiqisi əsasında simfonik orkestr üçün süita)
2. Qara Qarayev. "Xoreoqrafik lövhələr" (1953. Simfonik orkestr üçün. "Yeddi gözəl" baletindən)
3. Qalib Məmmədov. "Nüşabə və İskəndər" (1983)
4. Qalib Məmmədov. "Sirlər xəzinəsi" (1985. Eyniadlı baleti əsasında)
5. Tofiq Bakıxanov. "Xeyir və Şər" (1992. Eyniadlı baleti əsasında)

Vokal-simfonik əsərlər:

1. Qara Qarayev. "Üç təsnif" (1939. Səs və simfonik orkestr üçün)
2. Üzeyir Hacıbəyli. "Nizami" kantatası (1947. Bariton solo, xor və simfonik orkestr üçün. Sözləri Süleyman Rüstəmindir)
3. Ədviyyə Rəhmətova. "Nizami" kantatası (1968)

4. Süleyman Ələsgərov. "Nizami" (1990. Vokal simfonik poema. Solist, xor və simfonik orkestr üçün. Sözləri Hikmət Ziyanındır)
5. Ramiz Mustafayev. "Nizami" oratoriyası (1993. Böyük xor və simfonik orkestr üçün. Sözləri Rəfiq Zəka Xəndanındır)

Xor əsərləri:

1. Məmmədağa İsrafilzadə. "Hüsnün gözəl" (1941. Qarışıq xor ilə fortepiano üçün)
2. Qara Qarayev. "Payız" (1947. A capella xoru üçün)
3. Cahangir Cahangirov. "Qəzəl" (1947. Qarışıq xor ilə fortepiano üçün)
4. Georgi Burşteyn. "Поспеши" ("Tez gəl", 1948)
5. Cövdət Hacıyev. "Ey, gül" (1952. Fortepiano ilə qarışıq xor üçün)
6. Məmməd Quliyev. "Nizami haqqında dastan" (1980. Qarışıq xor üçün a capella. Sözləri Ələkbər Sallahzadənindir)
7. Məmməd Quliyev. "Qəmgin musiqi" (12 ifaçı və soprano üçün poema)
8. Rəşid Şəfəq. "Triptix" (1998. A capella xoru üçün. "Ey məni tərk edən", "Zülfünü görüncə", "Ömür vəfasızdır")
9. Ramiz Mirişli. "Peyğəmbərin tərifi" (1995. Vokal poema)
10. Məmməd Cəfərov. "Dahi Nizami" (2011. Sözləri İnqilab İsaqındır)
11. Şəmsi Kərimov. "Yar yolunda"
12. Mehriban Əhmədova. "Ey səba" (2014)

Vokal-instrumental əsərələr:

1. Məmməd Nəsirbəyov. "Nizami" süitası (1940. Mahnı və rəqs ansamblı üçün. Sözləri Məmməd Rahimindir)
2. Rəşid Şəfəq. "Ulu Gəncə – Nizami torpağı" (1970. Vokal silsilə)
3. Məmməd Quliyev. "Lirik poema" (1995. Soprano, iki fleyta, fortepiano və simli orkestr üçün)
4. Firəngiz Əlizadə. "Gottest ist der Orient" ("Allah Şərqdən gəlib", 2000, dörd hissəli kantata)

İnstrumental əsərlər:

1. Boris Zeydman. "Nizamidən fraqmentlər" (1938. Simli kvartet üçün)
2. Olqa Nikolskaya. "Xosrov və Şirin" (1947. Fortepiano üçün ballada)
3. Qənbər Hüseynli. "Yeddi gözəl rəqsi" (1940-1941. Xalq çalğı alətləri orkestri üçün)
4. Qalib Məmmədov. "Nizaminin xatirəsinə" (Simli kvartet, solo fleyta və fortepiano üçün "Elegiya")
5. Sərdar Fərəcov. "Qəsidə" (1991. Orqan üçün sonata)

Kamera-vokal əsərlər:

1. Üzeyir Hacıbəyli. "Sənsiz" (1941)
2. Üzeyir Hacıbəyli. "Sevgili canan"(1943)
3. Ərtoğrol Cavid. "Yar gəlmiş idi" ("Sevgili yar gəlmiş idi", 1940)

4. Georgi Burşteynş “Светла, как месяц” (“Ay bənizli gözəl”, 1941. Tenor və ya soprano üçün)
5. Midhət Əhmədov. “Ey, Nizami” (1941)
6. Olqa Nikolskaya. “Nizami. Ölməz dahi nəğməkar” (1941. Zil səs üçün. Sözləri Tələt Əyyubovundur)
7. Olqa Nikolskaya. “Любимая” (“Sevgilim”, 1955)
8. Fikrət Əmirov. “Gülüm” (1943)
9. Qənbər Hüseynli. “Ey gözüm, de görmədinmi” (1946)
10. Ağabacı Rzayeva. “Könlüm” (1947)
11. Ağabacı Rzayeva. “Qəmər nə lazım” (1968)
12. Hökümə Nəcəfova. “Yarım gəldi” (1947)
13. Hökümə Nəcəfova. “Qəzəl” (1991)
14. Hökümə Nəcəfova. “Tez gəl” (1991)
15. Ədilə Hüseynzadə. “Vəslin həvəsi” (1947)
16. Şəfiqə Axundova. “Nə gözəl” (1947)
17. Şəfiqə Axundova. “Nizami necə səbr etsin, əzizim” (1958)
18. Şəfiqə Axundova. “Neçin qəmxar saxlarsan” (1960)
19. Şəfiqə Axundova. “Ayüzlü nigarım” (1961)
20. Cahangir Cahangirov. “Gül camalın” (1947)
21. Tofiq Quliyev. “Könlüm” (1947)
22. Tofiq Quliyev. “Qəzəl” (1947)
23. Süleyman Ələsgərov. “Sərvi xuramanım mənim” (1947)
24. Adil Gəray (Məmmədbəyli). “Yar gəlmiş idi” (“Röyada”, 1947)
25. Hacı Xanməmmədov. “Surəti canan görünür” (1947)
26. Nərgiz Şəfiyeva. “Olacaqsan” (1957)
27. Nərgiz Şəfiyeva. “Çəkirəm” (1957)
28. Fəridə Quliyeva. “Mehman edəsən” (1963)
29. Məmməd Nəsirbəyov. “Aşiqəm” (1967)
30. Zakir Bağırov. “Gələcək nəslə xitab” (1973)
31. Tamilla Məmmədzadə. “Etmədədir” (1978)
32. Azər Rzayev. “Lirik mahnı” (“Afətlərə sultan olan...”, 1980. Səs və kamera orkestri üçün)
33. Sevda İbrahimova. “Tez gəl” (1981)
34. Sevda İbrahimova. “Səninlədir canım mənim” (1991)
35. Qalib Məmmədov. “Yenə tövbə evimi”
36. Elnarə Dadaşova. “Xoş keçər...” (1983)
37. Elnarə Dadaşova. “Dedim” (1984)
38. Elnarə Dadaşova. “Biçarə o kəski” (1984)
39. Elnarə Dadaşova. “Ədalət” (1984)
40. Ceyhun Allahverdiyev. “Nədəndir?” (1991)
41. Ceyhun Allahverdiyev. “Dilbər” (1991)

42. Nəriman Əzimov. “Nizami Yurdu” (2000. Sözləri Cahangir Məmmədovundur)
43. Dadaş Dadaşov. “Ayüzlü nigarım” (2013. Səs və kamera orkestri üçün)
44. Rəşid Şəfəq. “Hicran”

Nizami Gəncəvinin yaradıcılıq irsinə müraciət edən Azərbaycan bəstəkarları yaratdıqları musiqi əsərləri ilə dünya musiqi mədəniyyətini daha da zənginləşdirmişlər [8].

Nizami dühasından bəhrələnən musiqi əsərləri ilə tanışlıq göstərir ki, bu əsərlər məhz milli ənənələrlə bağlılığı, lirik xüsusiyyətləri ilə səciyyələnir.

ƏDƏBİYYAT

1. Qurbanəliyeva S. Nizami Gəncəvinin poemalarında musiqi. Bakı, Qanun, 2012. - 120 s.
2. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Fars dilindən tərc. edənlər S.Rüstəm, A.Sarovlu. Ön sözün, izahların müəllifi və elmi redaktoru R.Əliyev. Bakı, Yazıçı, 1981. -195 s.
3. Nizami Gəncəvi. Xosrov və Şirin. Fars dilindən tərc. ed. R.Rza. Ön sözün müəllifi H.Araslı. İzahların müəllifi M.Sultanov. Elmi redaktoru H.Məmmədzadə. Bakı, Yazıçı, 1983. - 401 s.
4. Qurbanəliyeva S. Nizami Gəncəvinin poeziyası vokal musiqidə. Bakı, Elm və təhsil, 2012. - 176 s.
5. Abdullayeva S. Nizamidə musiqi, musiqidə Nizami. Bakı, Nurlar, 2018. - 360 s.
6. Бадалбейли А. Низами о музыке и в музыке. Республиканский архив литературы и искусства, фонд №595, № 113. - С. 28-65.
7. Nizami musiqidə, sənətdə. Tərt.-Red. Rəşid Şəfəq, Bakı, “Şərq-Qərb”, 2014. - 515 s.
8. Курбаналиева С. Музыкальный мир Низами Гянджеви. Киев, Автограф, 2009. - 264 с.

Məqalənin redaksiyaya daxil olma tarixi: 19.07.2021
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.07.2021
Məqalənin çapa qəbul olunma tarixi: 08.10.2021
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.